# QAX: BÖYÜK İNKİŞAF YOLUNUN REAL GERÇƏKLİYİ

### *Gecələr ulduz tək alışıb, yanan...*

**Son illər Qax rayonunun televiziya və mətbuatın diqqət mərkəzində olması səbəbsiz deyil. Bu rayon sürətli inkişafı ilə ciddi uğurlar qazanmaqdadır. "Ədalət" qəzeti olaraq biz də müntəzəmliklə bu inkişafın gedişindən yazılar dərc edirik. Bəzən bu rayonun tarixi keçmişindən, bənzərsiz təbiətindən, Azərbaycan elminə, dövlətçiliyinə bəxş etdiyi tanınmış şəxslərdən və başqa özəlliklərindən də söz açaraq, oxucuları xoş nostaljiyə çəkirik. Və bütün hallarda, o məşhur İlisu-Sarıbaş dağlarından aşağıları seyr edərkən gecələri də gündüzlər kimi işıq saçan bu gözəl şəhərin ovsununa düşürük. Hələ bir şəhər içində ayrı bir şəhər olan "İçəribazar" sevdası...**



"...Qaxın çox gözəl iqlimi vardır. Əlbəttə ki, bunlar turizmin inkişafı üçün böyük potensialdır. Bütün bu şimal-qərb zonasının turizm imkanları çox genişdir. Əminəm ki, gələcəkdə də bu istiqamətdə daha böyük işlər görüləcəkdir..." Qax rayonu haqqında bu dəyərli fikirlər də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə məxsusdur.

"Belə bir qayğı və diqqətin nəticəsidir ki, qaxlılar ölkə başçısının ətrafında sıx birləşərək bütün məsələlərdə rəhbəri dəstəklədiklərini bildirir, ona sonsuz minnətdarlıq edirlər". Bu sözləri də başçılıq ediyi rayonun daha böyük uğurlar qazanması üçün yorulmadan çalışan hörmətli Musa Şəkiliyev söyləyir.

### *Uğurların təminatı*

Respublikanın hər yerində olduğu kimi, Qax rayonunda da 2019-cu ilin yekunlarına həsr edilmiş hesabat yığıncağı ruh yüksəkliyi ilə keçmişdir. Yığıncaqda məruzə ilə çıxış edən Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev demişdir:

***- Hesabat ilində respublikamızda olduğu kimi, rayonumuzda da müvafiq sahələrdə bir sıra işlər görülmüş və məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Belə ki, 2019-cu ildə rayon üzrə məhsulun ümumi buraxılışı 160 milyon 23 min manat (əvvəlki illə müqayisədə 3.4 faiz az) olmuşdur. İqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışının tərkibində sənaye məhsulu istehsalı 20 milyon 6 min manat, əvvəlki illə müqayisədə 2.8 faiz az olmuşdur. Azalma rayonun fındıq emalı müəssisələrinin fəaliyyətində qeydə alınmışdır. Hesabat dövründə kənd təsərrüfatı sahəsində məhsul buraxılışı 58 milyon 50 min manat və ya əvvəlki illə müqayisədə 7.8 faiz, nəqliyyatda 2 milyon 535 min manat və ya 5.0 faiz, rabitədə 1 milyon 189 min manat və ya 7.2 faiz, ticarətdə 42 milyon 399 min manat və ya 11.7 faiz çox olmuşdur. Tikinti sahəsində məhsul buraxılışı 35 milyon 844 min manat olmuşdur ki, bu da əvvəlki illə müqayisədə 13 milyon 960 min manat və ya 28.0 faiz az olmuşdur. Azalma dövlət və qeyri-dövlət mülkiyyəti üzrə tikinti-quraşdırma işlərinin əvvəlki illə müqayisədə az olması ilə izah olunur.***

Ötən il rayonda 435-i daimi olmaqla 679 yeni iş yeri açılmışdır ki, bu da əvvəlki illə müqayisədə 171 iş yeri çoxdur. Rayon üzrə orta aylıq əmək haqqı 332.7 manat olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 73.5 manat çoxdur.

Rayon üzrə büdcəyə ötən il 3 milyon 951 min manat proqnoza qarşı 4 milyon 50 min manat vəsait daxil olmuşdur ki, bu da proqnozun 102.5 faizini təşkil etmişdir. Ötən il büdcəyə yığılmış vəsaitin həcmi 2018-ci illə müqayisədə 171 min manat çox olmuşdur. Sahibkarlığın inkişafı və əhalinin işgüzar fəaliyyətinin artırılması və yeni iş yerlərinin yaradılması məqsədilə ötən il Sahibkarlığın İnkişafı Fondu tərəfindən rayonda 57 sahibkara 7 milyon 926 min manat güzəştli kreditlər verilmiş və həmin kreditlər hesabına 149 yeni iş yeri yaradılmışdır.

### *Hesabat ilində*

**rayonda bitkiçilik və heyvandarlıq məhsulları istehsalının dinamik inkişafının təmin olunması üçün nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi davam etdirilmişdir. Belə ki, 2019-cu ilin məhsulu üçün əkilmiş 13815 hektar payızlıq taxıl, o cümlədən 10934 hektar buğda, 2881 hektar arpa sahəsindən 41.1 min ton payızlıq dənlilər istehsal olunmuşdur. Payızlıq dənlilərdə hər hektardan orta məhsuldarlıq 29.8 sentner təşkil etmişdir. 2020-ci ilin məhsulu üçün 10270 hektar sahədə buğda, 2756 hektar sahədə isə arpa olmaqla cəmi 13026 hektar sahədə səpin işləri aparılmışdır. Hesabat ilində 1720 hektar qarğıdalı sahəsindən 12758 ton məhsul tədarük edilmiş, orta məhsuldarlıq 74.2 sentner təşkil etmişdir. Ötən il yazlıq və payızlıq əkin sahələrinə görə 2830 nəfər məhsul istehsalçısına 1 milyon 207 min manat subsidiya verilmişdir. Rayonumuz üçün ənənəvi istehsal sahələri olan tütünçülüyün və baramaçılığın daha da inkişaf etdirilməsinə xüsusi diqqət verilərək ötən il 491.6 hektar sahədə tütün əkini aparılmış 552.7 ton quru tütün tədarük olunmuşdur. Hesabat ilində tütünçülüklə məşğul olan sahibkarlara 16.9 min manat subsidiya verilmişdir.**

Hesabat dövründə rayonda əvvəlki illə müqayisədə 4.5 ton çox olmaqla 29.8 ton miqdarında yüksək keyfiyyətli barama istehsal olunmuşdur. Məlumat üçün bildirirəm ki, ötən ildən etibarən rayonumuzda damazlıq barama istehsalına başlanılmış və hesabat dövründə 2.5 ton damazlıq barama istehsal olunmuşdur. Kümdarlara damazlıq barama istehsalına görə 50.5 min manat və sənaye növlü barama istehsalına görə 107.4 min manat pul vəsaitinin ödənilməsi, həmçinin sənaye növlü baramanın hər kiloqramına 5 manat olmaqla 134.3 min manat subsudiyanın verilməsi təmin olunmuşdur. Qax Damazlıq İpəkçilik stansiyasında cari ildə kümdarlara paylanılması üçün 146 kq barama qurdu toxumu hazırlanmışdır. Baramaçılığın yem bazasının artırılması məqsədilə 39600 ədəd yerli, həmçinin Çin Xalq Respublikasından gətirilmiş 25000 ədəd yüksək məhsuldar tut tinglərinin rayon ərazisində əkini təmin olunmuşdur.

***Ölkədə qeyri-neft sektorunun inkişaf etdirilməsi, həmçinin regionların təbii-iqlim şəraiti və istehsal ənənələri nəzərə alınmaqla ixrac yönümlü məhsul istehsalının artırılması məqsədilə hesabat ilində rayonun ayrı-ayrı ərazilərində 267.8 hektar sahədə yeni fındıq bağları salınmış və bu istiqamətdə işlər bu ildə də davam etdiriləcəkdir. Məlumat üçün bildirirəm ki, kənd təsərrüfatı kooperasiyası üzrə pilot layihələrin dəstəklənməsi çərçivəsində Turaclı kəndində 96 ailəni birləşdirən ümumi ərazisi 350 hektar olan "Ata-Baba Fındıq İstehsalı" kooperativi yaradılmışdır...***

Rayonda yaradılmış Aqropark ərazisində 2019-cu ildə 136 hektar sahədə badam, 36 hektar sahədə qoz, 138 hektar sahədə üzüm bağları salınmışdır.

Yeni salınması nəzərdə tutulan meyvə bağlarında damcılı suvarma sisteminin quraşdırılması üçün 10 min və 20 min tonluq su anbarlarının tikintisi başa çatdırılmış və 2 ədəd nasos stansiyası quraşdırılmışdır. Müəssisənin maddi-texniki bazasının gücləndirilməsi məqsədilə 18 ədəd müxtəlif növ aqreqat və texnikalar alınmışdır. Müəssisədə cari ilin məhsulu üçün əkilmiş 1100 hektar buğda sahəsindən 4165 ton məhsul istehsal olunmuş, orta məhsuldarlıq 37.9 sentner təşkil etmişdir ki, bu da rayonun orta göstəricisindən 7.2 sentner çoxdur.



Qeyd olunmalıdır ki, Aqropark ərazisindəki suvarılan torpaq sahələrində orta məhsuldarlıq 57.6 sentner təşkil etmişdir. Hesabat ilində Aqropark ərazisində 170 hektar dən qarğıdalı sahəsinin hər hektarından 100 sentner olmaqla 1700 ton məhsul istehsal olunmuşdur. Aqropark ərazisində 2020-ci ilin məhsulu üçün 1070 hektar sahədə buğda, 90 hektar sahədə arpa əkini aparılmışdır.




Hesabat dövründə "Aqrolizinq" ASC-nin rayon bölməsi tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçılarına 70 faiz güzəştli qiymətlə 1643 ton azot, 128 ton karbamid, 793 ton ammofos, 697 ton nitroammofoska gübrələrinin, həmçinin 3865 litr həcmdə müxtəlif növ pestisidlərin satılması təmin olunmuşdur. Ötən il filiala məxsus texnikalar vasitəsi ilə rayonun ayrı-ayrı ərazilərində 800 hektar sahədə şum, 2000 hektar sahədə isə payızlıq dənlilərin biçini aparılmışdır.

Qax Regional Toxum Sertifikatlaşdırma Mərkəzi tərəfindən rayonda fəaliyyət göstərən özəl toxumçuluq müəssisələrində işlərin gedişi nəzarətə götürülmüş, toxumluq əkin sahələrində aprobasiya işi aparılmışdır. Hesabat ilində rayonda fəaliyyət göstərən 4 özəl toxumçuluq müəssisəsi və 2 nəfər taxıl toxumçuluğu ilə məşğul olan fiziki şəxs tərəfindən 6191 ton yüksək kondisiyalı buğda, 414 ton isə arpa toxumu istehsal olunaraq məhsul istehsalçılarına satılmışdır. Mərkəz tərəfindən sertifikatlaşdırılmış toxumların saxlanılmasına və etiketləşdirilməsinə nəzarət edilmişdir. Bununla belə qeyd olunmalıdır ki, mərkəz tərəfindən rayonda dövlət reyestrinə daxil olmayan və rayonlaşdırılmamış toxumların ticarət dövriyyəsinin qarşısının alınmasına tam nail olunmamışdır.

***Hesabat dövründə torpaqların su təminatının yaxşılaşdırılması və əhalinin içməli suya olan tələbatının yaxşılaşdırılması məqsədilə 613 min $m^3$ həcmdə lildən təmizləmə işləri, 43 ədəd hidropost və 67 ədəd hidroqurğuda təmir işləri aparılmışdır.***

Sel sularından mühafizə tədbirlərinin həyata keçirilməsi məqsədi ilə daşqın və selə qarşı 1030 min $m^3$ məcratəmizləmə işləri aparılmış, 1964 $m^3$ qabion və 5586 $m^3$ daş-beton bəndlərdə sahilbərkitmə işləri, beton bəndlərdə 313,7 $m^3$, dəmir-beton kanallarda isə 1587,1 $m^3$ təmir işləri aparılmışdır.

"Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında" ölkə başçısının 12 fevral 2019-cu il 952 nömrəli Sərəncamına uyğun olaraq hesabat ilində Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılmış vəsait hesabına rayonun 14 yaşayış məntəqəsində - Qazmalar, Almalı, Tanqıt, Qaysarlı, Qorağan, Şotavar, Lələli, Tasmalı, Ləkit, Qum, Qaratala, Qaradolaq, Böyük Alatəmir və Qaşqaçay kəndlərində subartezian quyuları qazılmışdır. Həmçinin Yaponiya səfirliyinin maliyyə dəstəyi ilə əhalinin içməli su təminatının yaxşılaşdırılması məqsədilə rayonun Güllük və Baydarlı kəndlərində hər birində 1 ədəd subartezian quyusu qazılmışdır...




### *Heyvandarlıq ərzaq bolluğu yaradır*

**Yığıncaqda qeyd olunmuşdur ki, hesabat ilində rayonun iqtisadiyyatında mühüm rol oynayan heyvandarlıq sahəsinin intensiv inkişaf etdirilməsinə xüsusi diqqət verilmişdir. Belə ki, 01 yanvar 2020-ci il tarixə rayonda 23393 baş iribuynuzlu mal, o cümlədən 12015 baş ana mal, 56955 baş qoyun-keçi və 21684 arı ailəsi mövcud olmuşdur. Mal-qara arasında qısırlıq hallarının minimuma endirilməsi, əhali təsərrüfatlarında olan mal-qaranın cins tərkibinin yaxşılaşdırılması və məhsuldarlığın yüksəldilməsi üçün süni mayalanmanın tətbiqi diqqət mərkəzində saxlanılmışdır. Ötən il 4091 baş inək-düyə süni mayalandırılmışdır ki, bu da 2018-ci illə müqayisədə 404 baş çox olmuşdur. Süni yolla mayalandırılmış inək-düyələrdən ötən il 2018-ci illə müqayisədə 157 baş çox olmaqla 2654 baş salamat bala alınmışdır. Süni yolla mayalanma nəticəsində doğulmuş buzovlara görə, 2261 nəfər mal sahibinə 263.8 min manat məbləğində subsidiya ödənilmişdir.**

**(ardı növbəti sayımızda)**

**Məzahir ƏHMƏDZADƏ**